# Yaradıcılıq prosesinin psixoloji əsasları

**Yeganə Baxış qızı Əskərova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Ümumi psixologiya" kafedrasının baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** y.askerova@inbox. ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. R.İ. Əliyev,
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** yaradıcılıq prosesi, motiv, fəaliyyət, intellekt, həvəs, təxəyyül, qabiliyyət, məntiq

**Ключевые слова:** творческий процесс, мотив, активность, интеллект, энтузиазм, воображение, способность, логика

**Key words:** creative process, motive, activity, intelligence, enthusiasm, imagination, ability, logic

İnsanlar hələ lap qədim zamanlardan yaradıcılığın sirrlərinə bələd olmağa, onun təbiətini, mexanizmini, ona təsir göstərən qüvvələrin mənbəyini açmağa cəhd etmişlər. Məhz yaradıcılıq psixologiyası da ilk vaxtlar yaradıcılığın özünə həvəsdən doğan və öz əksini müxtəlif dövrlərdə böyük mütəfəkkirlərin "yaradıcılıq nəzəriyyəsi" yaratmaqla bağlı ideyalarında, fikirlərində tapan təşəbbüslərindən irəli gəlmişdir. Belə ki, S.O. Qruzenberq özünün "Yaradıcılıq psixologiyası" adlı kitabında "yaradıcılıq nəzəriyyəsi" yaratmaqla bağlı təşəbbüslərin bir neçə tipini ayırd edir: fəlsəfi, psixoloji və intuitiv tiplər. Hər tipin özünün də növ müxtəliflikləri vardır. Belə ki, fəlsəfi tip qnosenoloji və mtofizik olmaqla iki istiqamətdə təzahür edir (5, s. 108). Əgər birinci istiqamətin qarşısında duran başlıca məsələ bədii intuisiya prosesində aləmin dərk edilməsidirsə (Platon, Şopenhauer, Mendebiran, Berqoon və b.), ikinci istiqamətin mərkəzi problemi dinin-etik intuisiyanın metafiziki mahiyyətini aşmaqdan ibarətdir (Ksenofen, Sokrat, Avqustin və b.) (5, s. 70).

Ümumiyyətlə, yaradıcılıq psixologiyası insanın yaradıcı fəaliyyətinin bütün növlərini öyrənir. Yaradıcılıq prosesində insan bütün mənəvi və fiziki imkanlarından bir vəhdət halında, optimal şəkildə istifadə etməyə çalışır. Əsil yaradıcılıq həmişə cəmiyyət və şəxsiyyət üçün faydalı məhsullar verir. Yaradıcılıq ictimai cəhətdən şərtləşmiş prosesdir (4, s. 435). Yaradıcılıq prosesində şəxsiyyətin müxtəlif psixi vəziyyətlərinin, xüsusən də yaradıcı vəcd və ilham vəziyyətinin, yaradıcılığının emosional-iradi komponentlərinin, həmçinin də yaradıcı şəxsiyyətin yaradıcılıq prosesində təzahür edən fərdi psixoloji xüsusiyyətlərinin (qabiliyyət, talant, dahilik və s.) öyrənilməsi məsələləri də yaradıcılıq psixologiyasının tərkibinə daxildir. Yaradıcılıq əsasən təxəyyül və təfəkkürlə bağlı olan psixi fəaliyyət formasıdır. Yaradıcı surətlərin formalaşmasında təhlil və tərkib proseslərinin rolu respublikamızda 60-cı illərin əvvələrində prof. Ə. Əlizadə tərəfindən öyrənilmişdir. "Ə.Ə. Əlizadəyə görə, yaradıcılıq potensialı hər bir insanda var, lakin bu potensialı reallaşdıra bilənlər yaradıcı ola bilirlər. Bunun üçün isə ilk növbədə stimul, şərait və iradi səy lazımdır. İradi səy, öyrənmə istəyinin inkişafı üçün isə təlim məqsədləri aydın olmalıdır" (3).

O, bu məsələni IV-V sinif şagirdlərinin təsviri fəaliyyəti kontekstində öyrənmişdir. Ə.Ə. Əlizadə yazır: "Təxəyyülün başlıca funksiyası yaradıcılıqla bağlıdır. İnsan yaradıcılıq yoluna

özünün müxtəlif qabiliyyətlərinin axarında gəlib çıxır. Bu yolun baş keçidi təxəyyül dünyasıdır. Təxəyyülsüz insanın digər qabiliyyətləri mahiyyətcə özlərinin yaradıcılıq vüsətini itirirlər" (1, s. 93).

Azərbaycan psixologiyasında sintetik (analitik) təxəyyülü öyrənmək üçün prof. Ə. Əlizadə kreativ testlər hazırlamışdır. Son dövrlərdə yaradıcılıq psixologiyası, şəxsiyyətin yaradıcı fəaliyyətinin tədqiqi məsələlərinə həsr olunmuş əsərlərdən birinin müəllifi prof. S.İ. Seyidovdur. Prof. S.İ. Seyidov tədqiqat işində əsasən yaradıcılığın sosial amillərlə şərtlənən xüsusiyyətlərini araşdırmış yaradıcılıq fenomeninin parodokslarını qeyd edərək onları təhlil etmiş, eləcə də yaradıcı aktivliyin daxili motivasiyasını göstərmişdir. S. Seyidovun yaradıcılıq fenomeninin parodoksları aşağıdakılardır:

**Məntiq paradoksu**

- Mənəviyyat paradoksu
- Kəmiyyət paradoksu
- Ümumilik paradoksu
- Arzu paradoksu
- Axtarış paradoksu
- Tamlıq paradoksu
- Dərk olunma pradoksu

Azərbaycan psixologiyasında S. Seyidov yaradıcılığı stimullaşdırmaq məqsədi ilə ilk dəfə olaraq semantik tipli tapşırıqlar işləmişdir.

Yaradıcılıq prosesində bir-birindən təcrid olunmayan, bir-birinə qarşılıqlı şəkildə təsir göstərib zənginləşdirən iki proses nəzərə çarpır: intellektual proses və motivləşmə prosesi. Yaradıcılıq zamanı intellektual proses yaradıcılıq növlərindən asılı olaraq müxtəlif səviyyədə cərəyan zamanı edir. Nəzəri yaradıcılıq zamanı intellektual akt–materialı, yaradıcı fəaliyyəti dərk etmək çox qüvvətli olur. Bu zaman emosionallıq adi halda nəzərə çarpır. Bədii yaradıcılıq prosesində isə dərketmə adi səviyyədən zəif olur. Beləliklə, elmi, texniki və bədii yaradıcılıq prosesində yaradıcı şəxsin intellektual səviyyəsi mühüm rol oynayır. Lakin aydındır ki, insanı işə təhrik edən amil olmasa, intellektuallığa da ehtiyac yoxdur. İnsanı yaradıcılığa təhrik edən motiv – məhz yaradıcılıq prosesini dərk etməyə imkan verir. Sonrakı dərketmə anları isə motivi qüvvətləndirir. Beləliklə, dərketmə ilə motivləşmə bir-birinə səmərəli təsir edərək, yaradıcılıq prosesinin məhsuldarlığını artır. Ona görə də yaradıcılıq prosesində bu iki amilin bir-birinə necə təsir etməsi, yaradıcılığın hansı anında bu amillərdən hansının aparıcı rol oynaması, yaradıcılıq prosesində təfəkkürün yaradıcı komponentlərin nədən ibarət olması, fikri aktivlik zamanı intuisiyanın, ilhamın rolu və motivlərlə əlaqəsi məsələləri, evristik axtarışların mahiyyəti və bu zaman motivin necə üzə çıxması və başqa bu kimi məsələlər indi böyük aktuallıq kəsb edir. Yaradıcılıq prosesində fərdi fərqləri öyrənərkən, yaradıcı şəxsin zehni qabiliyyətləri əsas yer tutur. Lakin bu zaman həmin şəxsiyyəti fəaliyyətə təhrik edən amillərin nədən ibarət olması da az əhəmiyyət kəsb etmir. Yaradıcılıq prosesində motivlərin özünəməxsus inkişaf dinamikası vardır. Bu dinamika fərdin ictimai münasibətlər sistemində nəşət edir. Motivlər daxili və xarici ola bilərlər. Xarici motiv dedikdə yaradıcı şəxsi fəaliyyətə təhrik edən yaradıcı fəaliyyətin əşyavi-tarixi amilləri, elmi axtarışların insanı fəaliyyətə təhrik edən inkişaf məntiqi deyil, başqa amillər başa düşülür. Bu amillər insan üçün böyük əhəmiyyət kəsb edə bilir. Lakin bu amillər xarici motivlərin əsasını təşkil edir. Mənliyini qoruma insanın əsas keyfiyyətlərindən biridir. Lakin bu keyfiyyət xarici motivdir, çünki mötəbər nəticələr əldə etmək, nəticələrin mötəbərliyinə görə mənliyinə, şəxsiyyətinə xələl gətirməmək bu prosesdə əsas yer tutur. Həqiqəti tapmağa maraq tədqiqatçının əsas keyfiyyətidir. Lakin bu, hələ

daxili motiv deyildir. Həqiqəti axtarma həvəsinin daxili motiv olması üçün elmi – tədqiqatlar məhz bu istiqaməti üzə çıxarmaq üçün qurulmalıdır. Məhz daxili motiv tədqiqatçını həqiqəti axtarmağa sövq edir. Hər bir yaradıcı şəxsin yaradıcılıq prosesi müəyyən plan, proqram, sistem və ardıcıllıq əsasında cərəyan edir. Yaradıcılıq prosesi yaradıcı şəxs tərəfindən daxilən motivləşdirilir. Əməyin məhsuldarlığı xarici motivlər əsasında motivləşdirilir, çünki formalaşan ideya tədqiqatçının deyil, başqasınındı. Tədqiqatçı bu ideyanın təsiri altında, yəni xarici motivin təsiri altında fəaliyyət göstərir. Bu zaman tədqiqatçının ideyasının başqa qüvvətli şəxsiyyətlərin ideyalarına uyğun gəlməsi işin səmərəli cərəyan etməsinə kömək edir. Daxili motivlər isə elmin, texnikanın, ədəbiyyat və incəsənətin inkişaf məntiqinə uyğun olaraq subyektin qarşısında duran vəzifələri həyata keçirməyə kömək edən motivlər hesab edilir. A. Piankare fikri məsələnin həlli prosesində yaradıcı şəxsin müxtəlif ideyaları seçməsi, lazımi qərarların qəbul edilməsi prosesində daxili motivlərin fəaliyyəti nəticəsi kimi qiymətləndirir.

İnsanlar arasında motivləşmiş münasibətləri öyrənmək üçün müxtəlif üsullardan istifadə edirlər. Belə üsullardan biri anket sorğuları zamanı adətən yaradıcı şəxsin daxili motivləri üzə çıxarılır. Həm də bu daxili motivlərə subyektiv amillər də az təsir etmir. Ona görə də anket faktlarının təhlili ilə bir tərəfdən üzə çıxan motivlərin mötəbərliliyinə tam inam yaranmır, digər tərəfdən isə yaradıcı şəxsin, məsələn alimin elmi maraq dairəsi tam genişliyi ilə üzə çıxmır.

Fəaliyyət sahələri kimi yaradıcılığın növləri də rəngarəngdir. Yaradıcılığın elmi, texniki, bədii, musiqi, ədəbi, pedaqoji kimi növlərini fərqləndirirlər. Bu növlərin bəziləri arasında kifayət qədər yaxın əlaqələr mövcuddur. Məsələn, alimlər maqnit sahəsinin təsiri ilə ilbizlərin hərəkətini müşahidə edib, öyrənməklə gəmiçilik sənayesində yeni modellər hazırladılar (2, s. 76). Elmi yaradıcılıq real aləmin hadisələri və ümumi inkişaf qanunauyğunluqlarının kəşfi ilə bağlıdır. Elmi yaradıcılığın aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik:

— Mücərrədliyə, elmi-tədqiqat məsələlərinin həlli zamanı şifahi-məntiqi təfəkkürə istinad;

— Elmi yaradıcılıq məhsullarına obrazlar, anlayışlar, əqli nəticələr, nəzəriyyə və abstrakt ideya şəklində mövcud olan yeni biliklər aiddir;

— Elmi yaradıcılıq prosesi real şəkildə mövcud olan, lakin hələ dərk olunmayan həqiqətlərin tədqiqindən ibarətdir. Tədqiqat yeni biliklərin əldə olunması və ya kəşflə nəticələnir;

Texniki yaradıcılıq gerçəkliyin praktiki cəhətdən yenidən təşkili ilə bağlıdır. Texniki yaradıcılıq özünün psixoloji xarakteristikasına görə elmi yaradıcılığa bənzəsə də, bir çox fərqləri vardır. Belə ki:

Texniki yaradıcılıq idrakın əyani-obrazlı və əyani-təsir komponentlərinə istinad edir.

- Texniki yaradıcılıq prosesi ixtiraçılıqda, konstruksiyalaşdırılmada təzahür edir, praktikanın tələblərinə cavab verən mexanizmlər, konstruksiyalar bu növ yaradıcılığın məhsulları sayılır. Rasionallıq və utilitarlıq onun əsas xassələridir.
- İxtira olan şey özündən əvvəlki texniki bazisə əsaslansa da, lakin əvvəllər mövcud olmamışdır.

Bədii yaradıcılıq gerçəkliyin estetik cəhətdən qavranılması ilə əlaqədar olub, insanların estetik tələbatlarının təmini ilə bağlıdır. Onun əsas xüsusiyyətləri aşağıdakılardır:

— Bədii yaradıcılığın mahiyyətində mücərrəd-məntiqi və əyani-aktiv düşüncənin əhəmiyyətli yeri olsa da, belə yaradıcılıqda əyani-obrazlı düşüncəyə istinad olunur;

— Bədii yaradıcılıq ictimai şüurun xüsusi forması olan incəsənətdə reallaşır, bədii yaradıcılığın məhsulu isə, hansısa maddi obyektdə (rəsm, heykəl, ədəbi əsər və s.) təzahür tapan bədii obrazdır;

— Bədii yaradıcılığın rasional tərəfi gizlin qalır və çox zaman utilitar təyinata malik olmur, ixtira və yeni elmi biliklərdə olduğu kimi, təcrübədə tətbiq olunmağı tələb etmir;

— Bədii yaradıcılıq eyni əsərin müxtəlif insanlar tərəfindən bir çox mənalarda təzahür etdirilməsinə imkan yaradır.

— **Pedaqoji yaradıcılıq** — bu, pedaqoji fəaliyyət sahəsində yeniliyin axtarışı və tapılmasıdır. Bu yaradıcılığın ilk pilləsini pedaqoji məsələlərin həllində qeyri-standart vasitələrin əldə olunması təşkil edir Pedaqoji yaradıcılığın fərdi növünü improvizasiya təşkil edir, bu gözlənilməz pedaqoji qərarın verilməsi və "burada və indi" təcəssüm tapmasıdır. İmprovizasiya prosesi özündə dörd əsas mərhələni əks etdirir: 1) pedaqoji ilham; 2) intuitiv yaranmış pedaqoji ideyaların ani olaraq anlaşılması və reallaşma yollarının tapılması; 3) bu ideyaların kütləvi təcəssümü.

**Məqalənin aktuallığı.** Yaradıcılıq prosesi insanın əzəli və ədəbi fəaliyyət prosesidir. İnsan yarandığı gündən həyatının sonuna kimi bu və ya digər şəkildə yaradıcılıq prosesi keçərək, öz tələbatlarını ödəyir və mühiti məqsədəuyğun şəkildə dəyişdirir, müasirləşdirir.

**Məqalənin elmi yeniliyi.** İnsan yaradıcılığının səmərəli yollarından istifadə etməklə öz nəzəri səviyyəsini inkişaf etdirir və bunun nəticəsində tədricən insan cəmiyyətlərində akselerasiya prosesi — cəmiyyətin, insan kütlələrinin zehni cəhətdən daha yaxşı inkişaf səviyyəsi formalaşır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Yaradıcılıq prosesinin motivləşmə xüsusiyyətlərindən faydalanmaqla və onun səmərəli yollarından istifadə etməklə daha çox məktəblilər öz fəaliyyətlərini istiqamətləndirə və tənzimləyə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, "Ozan", 1998, 364 s.
2. Əliyev R. Psixologiya. Bakı, "Qamma servis", 2003.
3. Əskərova Y.B. Azərbaycanda elmi psixologiyanın inkişafında Ə.Ə.Əlizadə yaradıcılığının rolu: Psixol. elm. nam. ...dis. Bakı, 2015, 134 s.
4. Məmmədov A. Ümumi psixologiya. Bakı, 2012.
5. Кедров В.М. О путях научного творчество. М., 1987, 260 с.

**Е.Б. Аскерова**

## Психологические основы творческого процесса

## Резюме

Креативность — это способность воображать то, чего нет, уметь делать то, что задумано, не так, как другие, и создавать новые идеи. Скорее, творчество — это видеть то, что видят все остальные, но при этом выдвигать новые идеи, отличающиеся от других. В то же время творчество — это иной подход к чему-то. Творческая миссия принадлежит тому, кто считается самым почетным из сотворенных, кто может создать новый мир внутри мира. Сегодня существует научная необходимость изучения проблемы творчества и творческих людей, ставшей символом времени, понимания ее сущности и значения.

**Y. B. Askarova**

## Psychological foundations of the creative process


## Summary

Creativity is the ability to imagine something that is not, to be able to do what is intended in a different way than others and to create new ideas. Rather, creativity is seeing what everyone else sees, but coming up with new ideas that are different. Creativity is seeing everyday events differently from others. At the same time, creativity is a different approach to something. The creative mission belongs to the person who is considered the most honorable of the created, who can create a new world within the world. Today, there is a scientific need to study the problem of creativity and creative people, which has become a symbol of time, and to understand its essence and importance.


**Redaksiyaya daxil olub:** 28.07.2022